# ƏNƏNƏNİ YAŞATMAQ İSTƏYİRİKSƏ...

## İlk xalq çalğı alətləri ansamblına diqqət və qayğı göstərilməlidir



*Əhsən RƏHMANLI,*
*tədqiqatçı, sənətşünaslıq üzrə fəlsəfə doktoru*

Azərbaycan radiosu 1926-cı ildə yaradılıb. Bəstəkar Müslüm Maqomayev (1885-1937)1927-ci ildə radionun musiqi verilişlərinin baş redaktoru təyin olunub. O, 1929-cu ildə tarzən-pedaqoq Əhmədağa Bakıxanovu (1892-1973) çağırıb söhbət aparır və ona radionun nəzdində xalq çalğı alətləri ansamblı yaratmasını tövsiyə edir. Ə.Bakıxanov o dövrün istedadlı musiqiçilərini ətrafına toplayır, əzmlə, böyük həvəs və məhəbbətlə bu ansamblı yaradır. Radio fəaliyyətə başladığı anlardan müəyyən dövrə qədər canlı ifalara yer verilirdi, yəni, hələ lent yazılarından istifadə olunmurdu, birbaşa mikrofonlar qarşısında əyləşərək çalınıb-oxunurdu. Ə.Bakıxanovun rəhbərlik etdiyi ansambl xanəndələrin radioda və dövlət tədbirlərindəki çıxışlarını müşayiət edir, instrumental melodiyalar-dəraməd, rəng, diringi və rəqs havalarını səsləndirirdi.

1937-ci ilin repressiya qovğası Bakıxanovların da başı üzərində acı rüzgar kimi əsirdi. Əhmədağanın qardaşı, tarzən Məmmədxan Bakıxanov həbs edilmişdi. O, özü isə istintaqa, müntəzəm dindirilməyə cəlb olunmuşdu. Odur ki, Əhmədağa Bakıxanov ansambl fəaliyyəti ilə məşğul olmurdu. 1938-ci ildə Sovet dövlətinin paytaxtı Moskvada keçirilən Azərbaycan SSR-in ədəbiyyat və incəsənət ongünlüyünə gedən qatarda Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi M.C.Bağırov (1896-1953) Ü.Hacıbəylini (1885-1948) öz kupesinə çağırıb söhbət aparır, musiqiçilərdən kimlərin getdiyi ilə maraqlanır və qəfildən soruşur: "O, solaxay tarçalan da gedənlər sırasındadır?". Ü.Hacıbəyli vəziyyəti olduğu kimi dövlət başçısına danışır, "İran casusu" kimi silist altında olan Ə.Bakıxanovun heç bir günahı olmadığını, musiqi xadimi kimi öz işini gördüyünü, xalqa və dövlətə səaqətlə xidmət etdiyini söyləyir. Moskva dekadasından sonra Bakıya qayıdan M.C.Bağırovun göstərişi ilə Ə.Bakıxanov istintaqdan uzaqlaşdırılır və qardaşı Məmmədxan həbsdən buraxılır.

1941-ci ildə Ü.Hacıbəyli Ə.Bakıxanova onun bir zamanlar radio nəzdində rəhbərlik etdiyi xalq çalğı alətləri ansamblını yenidən yaratmağı (əslində bərpa ermeyi-Ə.R.) tapşırır. Beləliklə, ansambl yenidən fəaliyyətini davam etdirir. 1956-cı il Azərbaycanda televiziya yarandığı vaxtdan Ə.Bakıxanovun idarəsi ilə ansambl Azərbaycan Televiziya və Radio Verilişləri Komitəsinin nəzdində fəaliyyət göstərir.

Bu ansambl olduqca məhsuldar bir yol gəlib. Burada xanəndələr və instrumental ifaçılar ordusu yetişib. Sənətkarlar olub ki, ilk yaradıcılıq addımlarını burada atıb, püxtələşib, formalaşıb, tanınıb və böyük sənət yolu keçiblər. İllərlə ölkəmizin ən məşhur, mahir, ustad xanəndələri, xalq və əməkdar artistləri bu ansamblın müşayiətilə Bakı səhnələrində, əyalətlərdə, radio və televiziyada canlı çıxışlarda, həmçinin radio fonduna, qrammafon vallarına səsləri yazılanda Ə.Bakıxanovun idarəsilə xalq çalğı alətləri ansamblının müşayiətilə oxuyublar. Bu sırada Bülbül (1897-1961), Xan Şuşinski (1901-1979), Zülfü Adıgözəlov (1898-1963), Cahan Talışinskaya (1909-1967), Gülxar Həsənova (1918-2005), Şövkət Ələkbərova (1922-1993), Sara Qədimova (1922-2007), Tükəzban İsmayılova (1923-2008), Əbülfət Əliyev (1926-1990), Fatma Mehrəliyeva (1926-2000), Rübabə Muradova (1933-1987), Hacıbaba Hüseynov (1919-1993), Gülağa Məmmədov (1925-1994), Yaqub Məmmədov (1930-2002), Qulu Əsgərov (1928-1987), İslam Rzayev (1934-2008), Məmməd Salmanov (1930-2005), Əlibaba Məmmədov, Zeynəb Xanlarova, Elmira Rəhimova, Teymur Mustafayev, Süleyman Abdullayev, Raziyə Şirinova, Kifayət Gəncəli, Niyaməddin Musayev, Zaur Rzayev və başqalarının adlarını hörmətlə çəkirik.



Təsəvvür edək ki, Ə.Bakıxanov 1929-cu ildə xalq çalğı alətləri ansamblı, ansambl qaydalarını yaratmasaydı, sonralar yeni-yeni ansamblllar meydana gələrdimi?

Qeyd etməliyik ki, yaranan bu ilk ansambl əvvəldən öz ifaçılıq yolu, səciyyəvi cəhətləri, alətlərin bir-biri ilə uzlaşdırılması, səslənməsi, tembr xüsusiyyətləri, müşayiət və texniki imkan fərqləri, repertuarı, solo bölgüsü, həmçinin, digər cəhətləri ilə seçilmiş, daim musiqi ictimaiyyətinin diqqətində olmuş, xalqın sevimlisinə çevrilərək yüksək zövq bəxş etmişdir. Ansambl öz ənənəsini yaratmış və bu günə qədər ona sadiq qalmışdır. Yazı müəllifi, ifaçı və təqiqatçı olaraq bildirirəm ki, uşaqlıq, gənclik illərində, orta yaşlarımda radio dalğaları vasitəsilə İran, Türkiyə, Ərəb ölkələri və Əfqanıstanın, həmçinin, Sovet imperiyasının daxilinə qatılan Özbəkistan, Tacikistan, Qırğızıstan və Qazaxıstanın xalq çalğı alətləri ansambllarının ifalarını dinləmiş, tembrləri ilə tanış olmuş və Azərbaycanın xalq çalğı alətləri ansambllarının tam fərqli, bizə çox doğma, özümüzəməxsus çalarlara, ahəngdarlığa mənsubluğu ilə qarşılaşmış və bundan qürur duymuşam. Həmçinin, vətənimizdə fəaliyyət göstərən xalq çalğı alətləri qrupları arasında Ə.Bakıxanov adına xalq çalğı alətləri ansamblının tam özünəxas ifa tərzi, dəsti-xətti və səslənməsinin olması da nəzərə çatdırılmalıdır. Deməli, haqqında mövzu açdığımız bu musiqi heyəti öz bünövrəsi, quruluşu, sütunları üzərində möhkəm dayanaraq öz ənənəsini hünərlə qorumaqda və şərəflə davam etdirməkdədir.

Hələ Ə.Bakıxanov vaxtı ilə ansambla konsertmeysterlik etməyi öz sevimli yetirməsi Həbib Bayramova (1926-1994) həvalə etmişdi. Sağlığında məşqlər Əhməd müəllimin öz mənzilində aparılırdı. Bura əsl musiqi evi, çoxlarına, bura qədəm qoyanlara doğma ocaq və zəngin sənət məbədi idi. Bütün repertuar burada hazırlanırdı.

Ə.Bakıxanov dünyasını dəyişəndən sonra da bu ansambl şərəfli sənət yolunu davam etdirmişdir. H.Bayramov öz təşkilatçılıq bacarığından, ustadı Ə.Bakıxanovdan əxz etdiyi ansambl yaradıcılığından, onun qoyub getdiyi təcrübədən istifadə edərək ömrünün sonuna qədər Teleradionun bu kollektivində səmərəli çalışdı, ustad və gənc müğənnilərin səslərinin radio fonduna yazılmasına, televiziyadakı konsertlərinə, dövlət tədbirlərindəki çıxışlarına yardımçı oldu, imkan yaratdı, əsl sənət fədakarlığı göstərdi. Bu yaradıcı kollektivdə xeyli müğənnilər, çalğı alətlərinin ifaçıları sənətə vəsiqə alıblar. Haqqında söhbət açdığımız ansambl əsl yaradıcılıq məktəbi olub, bir növ tədris müəssisəsi, sənət laboratoriyası funksiyası daşıyıb.

Mahir tarzən, xalq artisti, professor Möhlət Müslümovu dinləyirəm: "Həbib Bayramovdan sonra ansamblı qəbul etdim. Ansamblın stajlı, yaşa dolmuş üzvlərindən nağaraçalan Böyükağa Muradov (1932-2007), klarnet, balaban ifaçısı Elşad Cabbarov (1942-2006) və balabançı-dəmkeş Ağamalı Ağababa oğlunu (1936-2000) yenidən bu işə cəlb etdim. Məqsəd həm ansamblın ənənələrini, belə ifaçıları qorumaq, yaşatmaq, həm də onların təcrübəsindən istifadə edib kollektivə yeni cəlb olunan gənc ifaçıları yetişdirmək olub. Həmin illərdə bu işləri qurmaq, müəyyən uğurlara nail olmaq çətin olsa da, bunların öhdəsindən gəldik. Əvvəl Tibb İşçilərinin Mədəniyyət Evində, sonralar Çingiz Mustafayev adına mədəniyyət klubunda (əvvəlki Fioletov klubu), kasset fabrikində, Milli Konservatoriyaya verilmiş əvvəlki binada məşq edirdik. Bu yerlərdə məşq otağını çətinliklə, xahiş minnətlə alırdıq. İndi isə ümumiyyətlə məşq yerimiz yoxdur. Çətindir, çox çətindir, bəzən konsert öncəsi öz evimdə məşq etməli oluram. Mən Biləcəri qəsəbəsində yaşadığım üçün, üzvlərimizin ora gəlib çıxması çətinlik törədir. Əlbəttə, məşq yerimiz şəhər daxilində olmalıdır. Axı, sənət adamlarının, üzvümüz olan tələbələrin gün ərzində əsas işi şəhər içərisində olur".

Oxuculara məlum olsun deyə, bildiririk ki, xalq artisti, görkəmli tarzən H.Bayramov dünyasını dəyişməzdən doqquz ay əvvəl M.Müslümovu öz mənzilinə çağırıb söhbət aparmış, kövrək hisslərlə demişdi: "Bu ansambl yaşamalıdır, bu işi sənə tapşırıram. Bilirəm ki, sən bunun öhdəsindən gələ bilərsən, sən bizimlə çiyin-çiyinə çalışmısan, bizim ifa qaydalarımızı, ənənəmizi, səpgimizi və səslənməni bilirsən. Bilirəm ki, yaxşı tarzənsən, muğamlara tam şəkildə bələdsən, xanəndələr sənin müşayiətinlə rahat oxuyurlar, sən həm də xalq çalğı aləələri ansamblı ilə işləmək qaydalarını çox gözəl bilirsən, həm də enerjili musiqiçisən, ürəyin var, sənə arxayınam" .Möhlət müəllimin bu ansambla rəhbər təyin edilməsində xalq artisti, görkəmli bəstəkar, Ü.Hacıbəyli adına mükafat laureatı, şöhrət ordenli Tofiq Bakıxanovun da rəyi, tövsiyəsi nəzərə alınıb.

M.Müslümovun fikirlərindən: "Bizim ansambla tanınmış bütün xanəndələr müraciət edib, televiziyada, tədbirlərdə oxuyub, muğamları, təsnifləri, xalq və bəstəkar mahnılarını radioya, disklərə yazdırıblar. Yaqub Məmmədov, Arif Babayev, Canəli Əkbərov, Qəndab Quluyeva (1949-2017), Səkinə İsmayılova, Mələkxanım Əyyubova, Mənsum İbrahimov, Zakir Əliyev və başqaları bizimlə yaradıcılıq işi qurublar. Muğam müsabiqələrinin qalibləri ilə radioya, televiziya konsertlərinə iyirmi dəstgah-muğam yazmışıq. Bizim ansamblda 1994-cü ildən indiyə qədər yüzlərlə instrumental ifaçılar yetişib. Neçə-neçə tar, kamança ifaçıları bizim ansambldan pərvazlanıblar. Onları Milli Konservatoriyadan, kolleclərdən seçib kollektivə cəlb eləmişəm. Burada ansamblda çalmaq qaydalarını, müğənniləri müşayiət etməyi, solo ifaçılığını mənimsəyiblər. Onlar indi musiqi üçlüklərinin, müxtəlif qrupların tərkibində, bəziləri isə solist kimi sənət işlətməkdədirlər. Eləcə də xeyli nəfəs və simli alətlər ifaçılarını formalaşdırmışıq. Bizimlə birgə addımlayan gənc xanəndələrə əməkdar artist, xalq artisti fəxri adı verilib".

Ə.Bakıxanov adına ansamblın müşayiəti ilə müğənnilərin ifası altı diskə yazılıb Almaniyada istehsal olunaraq dünyaya yayılıb. Bundan əlavə istər fəxri adlar daşıyan, istərsə də sıravi xanəndələrin daxil edildiyi beş-altı ifaçıdan ibarət qrupla xarici ölkələrdə uğurlu səfərlər olub.

Adı çəkilən ansambl özəl televiziyalara dəvət olunur. Həmin televiziyaların geniş çəkiliş zalları yoxdur, yəni ansambl üçün səhnələri çox kiçikdir. M.Müslümovu dinləyirəm: "Mənə deyirlər ki, kiçik qrupla dəstgah-muğam ifa etmək üçün gəlin. Bu, bizim üçün əlverişli deyildir. Belə olanda, bizim ansambla xas olan ənənəvi, əzəmətli səslənməni verə bilmirik. Ona görə də, dəvət olunduğumuz hər verilişə, hər tədbirə, hər konsertə gedə bilmirik. Bir məsələyə də toxunmaq istərdim. Ə.Bakıxanov bir ustad olaraq xalq musiqimizi, muğamları çox dərindən bilib və özü də yaradıcı adam olub. Onun özünün bəstələdiyi dəramədlər, rənglər, təsniflər var. Bundan başqa xanəndələrin ifasında muğamları radio fondu üçün yazarkən o, uzun illər eşidib bildiyi, hafizəsində qoruduğu, istifadə etdiyi dəraməd və rənglərdən istifadə edib. Bax, onun bizlərə ərməğan qoyduğu bu zəngin xəzinəni qoruyuruq, ansambl üzvlərinə öyrədirik. Axı, hər dəraməd, hər rəng dəstgah-muğamlarla o qədər də uzlaşmır, effekt vermir, yaraşmır.

*(Davamı 12-cu səhifədə)*

# ƏNƏNƏNİ YAŞATMAQ İSTƏYİRİKSƏ...

## *İlk xalq çalğı alətləri ansamblına diqqət və qayğı göstərilməlidir*



*(Əvvəli 10-cu səhifədə)*

Düzdür, çox gözəl dəramədlər, rənglər var, lakin bunlar instrumental ifa üçün gözəldir, dəstgah-muğamlar üçün optimal deyildir. Dediyim, Əhməd Bakıxanovdan miras qalan fondu, bizə gəlib çatan xəzinəni ansambl üzvlərinə öyrətmək kimlərəsə asan gəlməsin. Bunlar hamısı vaxt aparır, hövsələ ilə birlikdə maddi həvəs də tələb edir axı...”

Məlumat veririk ki, Ə.Bakıxanov adına xalq çalğı alətləri ansamblı heç yerdən maaş, qonarar almadığı üçün maddi çətinliklə üz-üzə dayanaraq fəaliyyət göstərir. Bəzən məşqlərə gəlmək, konsertlərə, bayram tədbirlərinə getmək olmur və ya çətinliklə başa gəlir. Möhlət müəllim ansamblı öz maddiyyatı sayəsində qoruyub saxlaya bilir. Unutmaq olmaz ki, indi sovet dövründəki kimi avtobuslarla, metro ilə rahat məşqlərə gəlmək, qayıtmaq mümkün deyildir. Axı, Bakımız çox böyüyüb, daha möhtəşəm olub, əhalisi çoxalıb, ictimai nəqliyyatda gediş-gəliş çətinləşib, xüsusilə, günün müəyyən saatlarında-səhərlər işə, dərslərə getmək və axşamüstü evə qayıdış zamanı qələbəlik, basırıq olduğu üçün əldə çalğı alətləri ilə nəqliyyat növlərinə minmək çətinlik yaradır. Şəxsi avtomobillərlə Bakının müxtəlif istiqamətlərindən şəhərin mərkəzindəki konsert müəssisələrinə, televiziyalara gəlmək heç kəsə asan gəlməsin. Axı, bunlar da xərc tələb edir. Heç bir konsertdən, tədbirdən, televiziya verilişlərindən qonarar almayan və maaşsız işləyən sənət adamının vəziyyətini bir anlıq göz önünə gətirək. Bu yazının müəllifi özü ansambl rəhbəri olaraq bu problemlərlə qarşılaşdığı üçün bütün bunlar ona bəllidir. Yəni bu bir danılmaz faktdır ki, maddi cəhətdən təmin olunmayan heç bir yaradıcı kollektivi yaşatmaq, fəaliyyətini davam etdirmək mümkün olan iş deyil.

qarmonçalan Teyyub Dəmirovun 110 illiyi keçirilərkən bu tədbirin müğənnilərini Ə.Bakıxanov adına ansambl müşayiət etməli idi. Bu məqalədəcə göstərilib ki, Ə.Bakıxanov 1929-cu ildə yaradıb rəhbərlik etdiyi xalq çalğı alətləri ansamblını 1941-ci ildə yenidən bərqərar edib. Deməliyik ki, ilk heyətin qarmonçalanı Əhəd Əliyev (1893-1942), bərpa olunan ansamblın qarmonçalanı Teyyub Dəmirov (1908-1970) olub. Həmin tədbirdə tarixi fakt pozuldu və tamaşaçılar qarşısında AzTV-nin digər ansamblı çıxış etdi. Nə yaxşı ki, ondan əvvəl, 15.02.2018-ci il tarixində, həmin mədəniyyət müəssisəsində keçirilən mahir, ustad qarmon ifaçısı Əhəd Əliyevin 125 illik yubileyində təhrifə yol verilmədi, tədbirin bədii hissəsini M.Müslümovun rəhbərliyi ilə Ə.Bakıxanov adına ansambl idarə etdi. Yazı müəllifi olaraq qeyd edirəm ki, həmin gecənin təşkilatçılarından biri, Əhəd Əliyevin nəticəsi, Milli Konservatoriyanın dissertantı Aleksandriya-Sevinc Sultanzadə ilə söhbət zamanı məlum oldu ki, ulu babasının yubileyində çıxış etmək üçün AzTV-nin başqa bir ansamblını təyin ediblər. Mən ona apardığım tədqiqatlar barədə məlumat verdikdə, kitabları, məqalələri, foto-şəkilləri göstərib, tarixi faktları ortaya qoyduqda, o, əlaqədar insanlarla danışıb tələb olunan işin həllinə nail oldu və bu məsələ yubileydə haqq yerini aldı.

Son zamanlar AzTV-də, Mədəniyyət kanalında yubileylərlə bağlı musiqi məclisləri olur. Bu tədbirlər dünyasını dəyişmiş və ya ömrünün müdrik çağını yaşayan sənətkarların yaradıcılıq fəaliyyətlərini və onların repertuarını özündə əks etdirir. Həmin sənətkarların əksəriyyəti bir zamanlar Ə.Bakıxanovun idarəsi ilə və ya Ə.Bakıxanov adına xalq çalğı alətləri ansamblının müşayiətilə radio, televiziya və səhnə konsertlərində çıxış ediblər. Belə olan halda bəs niyə haqqında söhbət açdığımız



Televiziya və Radio Verilişləri QSC-nin rəhbərliyi bu bünövrəli, ənənəli, uzun bir dövr ərzində çalışaraq şərəfli, məhsuldar və nümunəvi yaradıcılıq yolu gələn bədii kollektivə doğmalıq göstərməlidir. Bu ansambl ya maaşla təmin olunmalı və ya onların hər çıxışına qonarar verilməlidir. Necə ki, artıq AzTV-nin nəzdində bu qaydalarla işləyən digər ansambllar fəaliyyət göstərirlər.

Biz yalnız məsələ qaldıra, təklif verə bilərik. Qalan məsələlər rəhbərliyin səlahiyyətinə aiddir. Ə.Bakıxanov adına xalq çalğı alətləri ansamblını ölkəmizdə fəaliyyət göstərən böyük şirkətlərin və digər imkanlı müəssisələrin maliyyəsi hesabına da yaşatmaq olar. SSRİ və Azərbaycan Respublikasının xalq artisti, Milli Məslisin deputatı Zeynəb Xanlarovanın rəhbərlik etdiyi instrumental ansamblın bütün üzvləri maaş alırlar. Əlbəttə, bu çox yaxşıdır, yaradıcı kollektivi yaşatmaq deməkdir.

Məqalə müəllifi, tədqiqatçı, sənətşünas kimi bildirirəm ki, bəzi tədbirlərdə Ə.Bakıxanov adına ansamblın çıxış etmək haqqı olduğu halda, digər qrupları görürük. Bu ondan irəli gəlir ki, tədbirlərin tapşırıldığı şəxslər, idarə edənlər musiqi mədəniyyəti tariximizi bilmirlər. Məsələn, bu ilin oktyabr ayının 26-da Beynəlxalq Muğam Mərkəzində ustad

ansambla bu məclislərdə, konsertlərdə meydan verilmir? Axı, burada haqq-nizam pozulur, tarixin bəzi anlarına müəyyən qədər xələl gəlir.

Əlaqədar təşkilatlara, səlahiyyətli şəxslərə müraciət və rica edərək deyirik ki, Ə.Bakıxanov adına xalq çalğı alətləri ansamblına qucaq açın, şərait yaradın, məşq yeri ayırın, yaşaması və daha geniş fəaliyyəti üçün maddi vəziyyətini təmin edin. Dönə-dönə xahiş edirik. Axı, bu ansambl musiqi tariximizin müəyyən dövrünü öz adında, göstərdiyi zəngin xidmətdə, gəldiyi məhsuldar, şərəfli illərdə yaşadır və AzTV-nin doğma yaradıcı kollektividir. Və bu gün doğmalığa ehtiyacı var.

Yazının sonunda onu da qeyd edirik ki, haqqında mövzu açdığımız ansamblın rəhbəri, xalq artisti, Milli Konservatoriyanın professoru Möhlət Müslümov mahir, yüksək istedadlı, təbli, musiqili ürəkli, həssas duyğulu tarzən, ifaçılıq sənətində dərin izi, təcrübəsi olan, yalnız vətənimizdə deyil İranda, Türkiyədə, bir sıra Avropa ölkələrində və Amerikada tanınıb sevilən bir sənətkardır. Oxucuların nəzərinə çatdırırıq ki, növbəti yazını onun həyat və fəaliyyətinə həsr edəcəyik.

**2018**